**UOT 314**

# XIX ƏSRDƏ BORÇALI BÖLGƏSİNDƏ KÖÇÜRÜLMƏ SİYASƏTİ

**Gülər QAFQAZLI**[*]

***Açar sözlər:*** *Azərbaycan, Borçalı, Gürcüstan, Rusiya, köçürülmə siyasəti*

**Giriş**

Cənubi Qafqazda, o cümlədən Gürcüstanda etnik məsələlər eyni zamanda həm də siyasi məsələ kimi mühüm əhəmiyyət kəsb edir. Belə ki, XIX əsrin əvvəllərində qədim Azərbaycan torpaqları olan Şərqi Gürcüstan bölgəsində, xüsusilə Borçalıda azərbaycanlıların bir sıra tarixi hadisələrlə əlaqədar olaraq miqrasiyası və öz ata-baba yurdlarından sıxışdırılıb çıxarılması nəzərə çarpır. Borçalının əhalisinin əsas tərkibini qarapapaqların təşkil etməsinə baxmayaraq, onlarla yanaşı tərəkəmələr də burada yaşamış, müxtəlif dönəmlərdə baş vermiş tarixi proseslər nəticəsində demoqrafik dəyişikliklərə məruz qalmışlar.

**1. Borçalı bölgəsində ilk köçürülmələr**

Borçalı bölgəsindən azərbaycanlı əhalinin ilk köçürülmə prosesi XVII əsrdə I Şah Abbasın (1587-1629) köçürmə siyasəti ilə bağlıdır. Bu barədə Z.Bünyadov yazır: “1604-1606-cı illərdə I Şah Abbas Osmanlı imperiyasına bağlı olan Qazax-Borçalı bölgəsinin köklü əhalisini şübhələndiyindən Gəncə-Qarabağ və Şirvan torpaqlarına köçürür və sərhəd ərazisində yaşayan həmin əhalini Səfəvi dövlətinə “xilaf çıxanlar” hesab edir” (1, s.17). Yeri gəlmişkən, onu da qeyd edək ki, Şərqi Gürcüstanda yaşayan Azərbaycan əhalisinin böyük əksəriyyəti süni məzhəbli idilər.

1801-ci ildə Gürcüstanın Rusiya dövlətinin tərkibinə daxil olması ilə Borçalı bölgəsinin əhalisi İrəvan xanlığının sərhədinə miqrasiya edilir. İrəvan xanlığının sərhədinə miqrasiya edilən Qazax-Borçalı bölgəsinin qarapapaqlar tayfası Abbas Mirzəyə (1789-1833) sadiq olanlar idi. Məlumdur ki, Türkmənçay müqaviləsindən sonra İrəvan xanlığının da Çar Rusiyasının tərkibinə keçməsi ilə həmin ərazidə yaşayan qarapapaqlar tayfası cənuba doğru köç etməyə başladılar. 1829-cu ilin məlumatlarına əsasən, “Borçalı-Qazax bölgəsindən olan 800 qarapapaq ailəsi Mehdi xanın rəhbərliyi altında Urmiya gölünün yaxınlığında olan Uşnu əyalətinin Sulduz mahalında münbit torpaqlarda şaha 400 atlı və hər il on iki min tümən vergi ödəmək şərti ilə yerləşmək izni alır. Burada məskunlaşmağa başlayan qarapapaqlar öz ata-baba yurdlarının adları ilə həmin yaşayış məskənlərini Tərkəvan, Saral, Araplı (Ərəbli), Canəhmədli, Çərəkli, Ulaşlı və s. adlandırır. Həmin torpaqların idarəçiliyinə borçalılı Qulu xan təyin olunur” (1, s.18).

M.F.Kırzıoğlu qeyd edir ki, Türkmənçay müqaviləsindən sonra Borçalı və Qazax qarapapaqlar tayfasının bir hissəsi öz ata-baba yurdlarını tərk edərək Osmanlı imperiyasının Qars bölgəsinə yerləşirlər (3, s.200).

Bununla yanaşı, Borçalı əhalisinin miqrasiyasına səbəb olan digər amil həmin ərazilərə xristian əhalinin süni şəkildə köçürülməsidir. 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə əsasən, İran və Osmanlı imperiyasından Şərqi Gürcüstana köçürülən ermənilər vəziyyəti daha da çətinləşdirir. Nəzərə çatdıraq ki, bir tərəfdən əkin-biçinə yararlı olan Borçalı bölgəsi münbit torpaqlara malik idi, digər tərəfdən də sərhəd bölgəsi kimi mühüm strateji məntəqə sayılırdı. Bu səbəbdən də erməni əhalisinin bu ərazilərə köçürülməsi məqsədyönlü xarakter daşıyırdı və Rusiya dövlətinin maraqlarına uyğun gəlirdi. N.Şavrovun da qeyd etdiyi kimi, XIX əsrin sonlarında Qafqazda yaşayan bir milyon üç yüz min ermənilərin bir milyonu köçürülmə siyasətinin nəticəsində buraya gələnlərdir (12, s.52).

XIX əsrin əvvəllərində Borçalıya yalnız İran və Osmanlı imperiyasının tərkibindəki erməni əhalisi deyil, eyni zamanda Tiflis quberniyasına daxil olan xristian gürcü ailələri də köçürülmüşdür.

---

[*] *Tarix üzrə fəlsəfə doktoru,AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: ggafgazli@yahoo.com*

Apsiauri, Tsiklauri, Xomasuridze, Burduladze, Merteveli, Lobjanidze, Sxirtladze, Davlianidze, Miqrial, Xizanaşvili, Aspanadze, Zirakaşvili və s. kimi gürcü ailələri azərbaycanlılara məxsus Merab, Mecevan və Cavax kimi kəndlərinə yerləşdirilmişdir (8, s.85).

1828-ci il mənbələrinə görə, Borçalı bölgəsinə məxsus Oruzman, Qarayazı, Kəpənəkli, Darvaz, Bəzəkli, Yırqançay, Qəmərli, Ağalıq, Fəxralı və s. kəndlərdə yaşayan tərəkəmə əhalisi Osmanlı imperiyasının Toka-Zilə ilinə aid Süleymaniyə, Fateh, Xətippınarı, Osmannınarı, Çiçəkpınarı kəndlərinə və Amasiyaya aid Alabədir, Ayrançı, Qorudüzü, Alakədi kəndlərinə köçürülmüşdür (3, s.74). Bu köç həmçinin Şərqi Gürcüstandan Qarsa tərəkəməlilərin ilk miqrasiyası hesab edilir (2).

Türk tarixçilərinin əsərlərinə istinadən onu da qeyd edə bilərik ki, XVIII-XIX əsrlərdə baş vermiş rus-osmanlı müharibələri zamanı borçalılar böyük şücaət göstərmiş və osmanlıların tərəfində mübarizə aparmışlar (8, s.173).

1838-ci ildə Borçalı bölgəsində 65% azərbaycanlı, 24,5% erməni, 5,5% yunan, 4,8 % isə gürcü əhalisi yaşayırdı (8, s.173). Eyni zamanda, Borçalıda 134 azərbaycanlı kəndi, 69 erməni kəndi, 36 yunan kəndi, 14 rus kəndi, 14 gürcü kəndi, 2 alman kəndi mövcud idi (8, s.173). Burada göstərilən alman və yunan kəndlərinə gəlincə, onlar XIX əsrin birinci yarısında Borçalıya köçürülən alman koloniyalarının və yunan ailələrinin köçürülməsi ilə yaradılmışdı (8, s.174).

**2. Borçalı bölgəsində yeni köçürmə siyasəti**

Rusiya dövlətini Borçalıda yaşayan azərbaycanlı əhalinin artımı narahat edirdi və bunun həlli yolu tapılır. Belə ki, XIX əsrin 40-50-ci illərində Ukrayna və Rusiya ərazisindən Borçalıya miqrasiya edilən ailələr səbəbindən borçalıların Osmanlı imperiyasına aid Ərzurum və Qars bölgəsinə yenə də köçürülməsi hadisəsi baş verir (11, s.42). Bu dəfə də erməni və rus ailələri onlar üçün Borçalının münbit torpaqlarında yeni salınmış yaşayış məntəqələrinə yerləşdirilir. Beləliklə, əgər XIX əsrin əvvəllərində Borçalının 80%-i azərbaycanlılar idisə, XIX əsrin ortalarında isə bu rəqəm 30% -ə bərabər tutulur. Eyni zamanda, Borçalıda yaşayan rus, erməni və alman ailələrinə öz dillərində təhsil almaq hüququ verilir, azərbaycanlı və yunan ailələri isə bu hüquqdan məhrum olunur və yalnız ilk təhsilini rusdilli məktəblərdə ibtidai təhsil almalarına icazə verilir (4, s.42).

Rusiya dövlətinin yürütdüyü siyasətə baxmayaraq, Borçalıya köçürülən rus, erməni, yunan və alman ailələri bir müddət sonra yerli azərbaycanlı əhalisinin dilini öyrənir və Azərbaycan dilində danışırdılar. Bunun səbəbini belə izah etmək olar ki, gəlmələr yerli əhali ilə ünsiyyət qurmaq üçün onların dilini öyrənməyə məcbur idi, digər tərəfdən də həmin ərazilərin toponimikası azərbaycanlılara məxsus olmuşdur (8, s.176).

Qeyd etmək lazımdır ki, Borçalıya köçürülən ermənilər yerli əhalinin adət-ənənəsini əxz edir, bununla da kifayətlənməyərək öz soyadlarını gürcü, rus və azərbaycanlı soyadlarına uyğun dəyişdirirlər. V.Veliçko yazır, "Gürcüstanda kütləvi şəkildə ermənilər sonluğu "şvili" ilə bitən soyadlar qəbul etmiş, müsəlman yaşayan bölgələrdəki ermənilər isə Yusif-bəyli, Qara-bəyli, İbrahim-xanlı və buna bənzər soyadlıya çevrildilər" (10, s.83). Ermənilərin xüsusiyyətinə yaxşı bələd olan müəllif, sonrakı sətirlərdə ermənilərin yerli əhali ilə assimilyasiyasını göstəriş olduğunu, həqiqətdə zəif bəndin və müvafiq şəraitin yaranmasını gözlədiyini nəzərə çatdırır (10, s.84).

Digər müəllif də öz əsərində qeyd edir ki, hal-hazırda Borçalı bölgəsində yaşayan gürcülərin böyük əksəriyyəti yaxın keçmişdə gürcü soyadını qəbul edən ermənilərdir (7, s.69). Yeri gəlmişkən, Rusiya imperiyasının Şərqi Gürcüstana erməni ailələrin köçürülməsi siyasətinin nəticəsində ermənilər özlərinə həm azərbaycanlılara mənsub torpaqlarda, həm də gürcülərə xas torpaqlarda özlərinə dövlət qurmaq xülyasına düşmüşdülər.

1855-ci ildə Borçalı bölgəsindən Qars bölgəsinə qarapapaqların ikinci köçü həyata keçirilir. Qarapapaqlar tayfasının yaşadığı yerlərdə onlara münasib şəraitin yaradılmaması, onların digər gəlmələr tərəfindən sıxışdırılması və digər siyasi məsələlər əsas səbəblərdir. 1877-1878-ci illərdə isə rus-osmanlı müharibəsinin yenidən başlaması qarapapaqlar tayfasının Qars, Ərdahan və Kağızman bölgəsinə üçüncü dəfə köçürülməsi ilə nəticələnir (8, s.178).

XIX əsrin ikinci yarısında Borçalıya planlı şəkildə Orenburq, Pavlodar, Həştərxan, Stavropol və Krasnodar əyalətlərindən rusların köçürülməsinə başlanır. Həmin ailələri məhz Borçalının iqlim cəhətdən onlara uyğun gələn torpaqlarına yerləşdirirlər. Həmin yaşayış məntəqələrə əsasən Ormeşən, Başkeçid, Yeni-Mixaylovka, Qarakilsə və s. aiddir (8, s.184).

Borçalıda yaşayan yəhudi və gürcü ailələrinə gəlincə, onlar azərbaycanlılarla daha xoş münasibətlər qurur və Azərbaycan dilində danışa bilirdilər. Bunun əsas səbəbi yunanların 1810-1831-ci ildə Ərzurum və Gümüşxanadan Borçalının dağ və dağətəyi hissəsinə köçürülməsi və türk dilinin Anadolu ləhcəsində sərbəst danışması idi (6, s.215). Gürcülər və yunanların dini məzhəbdən savayı demək olar ki, bütün adət-ənənələri azərbaycanlılarla bir-birinə bənzəyirdi (5, s.71). Onların yaşadıqları kəndlər Gümərət, Disix, Dmanis, Güvəç və Şulaver kəndləri idi.

Yuxarıda qeyd olunduğu kimi, Borçalıya köçürülən almanlar ilk dəfə XVIII əsrin sonlarında imperatriçə II Yekaterinanın (1729-1796) manifestinə əsasən, Virtemberq krallığından və Lüksemburqdan Rusiya imperiyasına və XIX əsrin əvvəllərində isə buradan Qafqaza, habelə Yelizavetpol quberniyasına və Borçalıya köçürülənlər idi (9, s.42). Borçalıda məskunlaşmış ikinci alman koloniyası 1857-ci ildə gələnlərdir. Almanlar ilk dönəmdə Borçalının iqliminə alışa bilməsələr belə, bir müddətdən sonra kənd təsərrüfatı həyatlarını qura bilir və həmin bölgədə məşhur olan alman pendirinin istehsalına başlayırlar. Bu səbəbdən də dövlət onları vergidən azad edir və bəzi hüquqi güzəştlərlə təmin edir (8, s.187).

**Nəticə**

Göründüyü kimi, XIX əsr Borçalı bölgəsinin əsas tarixi müxtəlif köçürülmə siyasəti ilə bağlıdır. Beləliklə, Borçalı bölgəsinə xristian ailələrin köçürülməsi konkret məqsəd daşısa da, qəsdən erməni əhalisi buraya köçürülsə də, müəyyən dövrlərdə Borçalıda yaşayan azərbaycanlılar öz doğma ata-baba torpaqlarından iradələrinə zidd halda sıxışdırılıb çıxarılsa da, həmin ərazilərdə nisbətən azərbaycanlıların sayı azaldılsa da, demoqrafiyası zaman-zaman dəyişsə də azərbaycanlılar kütləvi şəkildə torpaqlarını tərk etməmiş, orada yaşamışlar, bu gün də Borçalıda azərbaycanlı ailələri mövcud olmaqdadır.

## ƏDƏBİYYAT


1. Bünyadov Z.M. (1991). Borçalıqarapapqları. Borçalıjurn. № 1.
2. Hacılar V. (1993). Mehralı bəy// Gülüstan qəzeti, 26 iyun. Bakı.
3. KırzıoğluM.F. (1953). Karstarihi. c. 1. İstanbul.
4. Qaralov Z. (2001). Borçalıda maarifin inkişafı//Qaytarılan köç karvanı. Bakı.
5. Ömərli V. (2001). Borçalı distansiyası. Ş.Məmmədli. Paralanmış Borçalı// Bakı.
6. Sarvanlı M. (2000). Ulu Borçalı. Bakı.
7. Şamığoğlu Ş. (1997). Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). Bakı.
8. Аббасова М.А. (2006). История Борчалинского махала (XIX - начало XX в.). Lокторская диссертация.Баку.
9. Аргутинский-Долгоруков А.М. (1897). Борчалинский уезд в экономическом и коммерческом отношениях. Тбилиси.
10. Величко В. (1990). Кавказ, Русское дело и международные вопросы. Баку.
11. Ибрагимбейли Х.М. (1969). Россия и Азербайджан в 1-ой трети XIX в. Москва.
12. Шавров Н.М. (1911). Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Муганиинородцом. Санкт-Петербург.

## *XÜLASƏ*

***Gülər QAFQAZLI***

### *XIX əsrdə Borçalı bölgəsində köçürülmə siyasəti*

***Açar sözlər:*** *Azərbaycan, Borçalı, Gürcüstan, Rusiya, köçürülmə siyasəti*

Məqalədə XIX əsrdə Azərbaycanın qədim torpaqlarından biri olan Borçalı bölgəsində köçürülmə siyasəti işıqlandırılmışdır. Borçalı bölgəsində ilk köçürülmə siyasətinin hələ I Şah Abbas (1587-1629) dönəmində başlaması, bunun səbəbləri və daha sonrakı dövrlərdə mütəmadi olaraq keçirilən köçürülmə siyasəti məsələləri şərh edilmişdir.

Göründüyü kimi, Borçalı bölgəsində köçürülmə siyasəti əsasən 1828-ci il Türkmənçay müqaviləsindən sonra daha qabarıq həyata keçirilməyə başlamışdır. Belə ki, Borçalı bölgəsi Rusiya imperiyasının tərkibinə keçdikdən sonra həmin əraziyə almanlar, yunanlar, gürcülər və ermənilər köçürülür. Bu köçürülmə siyasəti planlı şəkildə aparılır və azərbaycanlıların öz ata-baba torpaqlarından sıxışdırılıb çıxarılması məqsədini daşıyırdı.

Köçürülmə siyasətinin bir hissəsi də rus-osmanlı müharibəsi zamanı borçalıların öz doğma torpaqlarından məcburi şəkildə çıxarılaraq Osmanlı imperiyasının Qars, Ərdəhan və digər ərazilərinə yerləşdirilməsi ilə davam etdirilir. Bu proses bir mərhələli şəkildə baş verməmiş, zaman-zaman təkrarlanmışdır. Borçalıların zorla çıxarıldığı torpaqlara isə Rusiya dövləti tərəfindən yenidən xristian ailələri köçürülməyə başlanmışdır.

Rusiya dövlətinin məqsədyönlü şəkildə həyata keçirdiyi köçürülmə siyasətinə baxmayaraq bu gün də Borçalı bölgəsində, o cümlədən Şərqi Gürcüstanda azərbaycanlılar yaşaya bilmiş və mövcud olmaqdadır.



## *РЕЗЮМЕ*

***Гюляр КАВКАЗЛЫ***

### *Политика переселения в Борчалинском крае в XIX веке*

***Ключевые слова:*** *Азербайджан, Борчалы, Грузия, Россия, политика переселения*

В статье освещается политика переселения из древней Азербайджанской земли Борчалинского региона в XIX в. Изложино начало первой политики переселения в Борчалинском регионе в период правления шаха Аббаса I (1587-1629), причины этого и вопросы политики переселения, регулярно проводившейся в последующие периоды.

Как видно, политика переселения в Борчалинском регионе стала более заметной после Туркменчайского договора заключенногов 1828 г. Таким образом, после того, как Борчалинский край стал частью Российской империи, сюда переселились немцы, греки, грузины и армяне. Политика переселения проводилась планомерно и была направлена на изгнание азербайджанцев с их исконных земель.

Часть политики переселения была продолжена во время русско-османской войны путем насильственного изгнания борчалинцев с их исконных земель и расселения их в Карсе, Ардахане и других районах Османской империи. Этот процесс происходил не за один раз, а повторялся время от времени. Российская империя начало переселять христианские семьи на земли, откуда насильно выселяли борчалинцев.

Несмотря на целенаправленную политику переселения, проводимую российскойимперией, азербайджанцы смогли проживать в Борчалинском регионе, в том числе и в Восточной Грузии.

***SUMMARY***

***Gular GAFGAZLI***

***Resettlement Policy in the Borchaly Region in the 19th Century***

***Keywords:*** *Azerbaijan, Borchaly, Georgia, Russia, resettlement policy*

The article highlights the policy of resettlement adopted in the ancient Azerbaijan land of the Borchaly region, in the 19th century. The beginning of the first resettlement policy in the Borchaly region goes back to the reign of Shah Abbas I (1587-1629), the reasons for this, and the issues of the resettlement policy, regularly carried out in subsequent periods, are outlined.

As can be seen, the resettlement policy in the Borchaly region became more noticeable after the Treaty of Turkmenchay concluded in 1828. Thus, after the Borchaly region became part of the Russian Empire, Germans, Greeks, Georgians, and Armenians moved here. The resettlement policy was carried out systematically and was aimed at expelling Azerbaijanis from their ancestral lands.

Part of the resettlement policy was continued during the Russian-Ottoman war by forcibly expelling the Borchalians from their ancestral lands and settling them in Kars, Ardahan, and other regions of the Ottoman Empire. This process did not happen all at once but was repeated from time to time. The Russian Empire began to resettle Christian families to the lands from which the Borchalians were forcibly evicted.

Despite the purposeful resettlement policy pursued by the Russian Empire, Azerbaijanis were able to live in the Borchaly region, including in Eastern Georgia.